**Orucoğlu, Z**. Mərdlik və şücaət nümunəsi // Respublika. - 2025. - 13 avqust. - **№ 168**. - S. 12.

30 il əsarətdə olan əzəli yurd yerimiz - Qarabağımızı qanları bahasına azad edən, ulu torpağın bağrına üçrəngli zəfər bayrağımızı sancıb tarixin yaddaşında iz qoyan qəhrəmanlardan biri də Elçin Qismət oğlu Novruzovdur. Ölümsüzlüyə qovuşan qəhrəman Vətən sevdalısının oddan, alovdan keçən döyüş yolu fədakarlıqla, mərdliklə doludur. Məhz buna görə qərinələr keçəcək gələcək nəsillər Vətəni sevməyi, doğma torpağı necə qorumağı ondan öyrənəcək. Elçinin Vətən naminə, öz xalqının xoşbəxt gələcəyi üçün göstərdiyi misilsiz şücaət heç vaxt unudulmayacaq, Azərbaycan var olduqca, o, da yaşayacaq.

Elçin Novruzov 1989-cu ildə Rusiyanın Voronej şəhərində dünyaya gəlib. 1996-2005-ci illərdə Masallı rayon, Hüseynhacılı, 2005-2007-ci illərdə Ə.Məmmədov adına Öncəqala kənd tam orta məktəbində təhsil alıb. 2007-ci ildə Hava Hücumundan Müdafiə Qüvvələrinin sıralarında hərbi xidmətdə olub. Vətən müharibəsinə könüllü olaraq qatılan Elçin Novruzov Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. "Doğma Azərbaycanımızın müqəddəs bir parçası olan Qarabağımız azad olmamış silahı yerə qoymaram" - deyə and içib. Neçə-neçə döyüşdə düşmənə sarsıdıcı zərbələr endirib, hər qarış torpaq uğrunda mərdliklə vuruşub. Döyüşlərin birində şəhidlik zirvəsinə ucalıb. 16 noyabr 2020-ci ildə Masallı rayonunun Hüseynhacılı kəndində dəfn olunub. Şərəfli ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılan Elçin Novruzov "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqləndiyinə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Masallı camaatı öz qəhrəman oğlunun xatirəsini əziz tutur, böyük sevgi və məhəbbətlə onu yad edirlər. Ad günündə masallılılar tərəfindən iftixarla yad olundu. Sevdalanıb əbədi sinəsinə baş qoyan torpağı ziyarət edən mərasim iştirakçıları şəhidin məzarına ehtiram əlaməti olaraq güllər düzdülər. Onu da bildirdilər ki, Vətən, torpaq naminə şərəfli ölümü ilə əbədi olaraq Elçin milyonların ürəyinə köçüb.